

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 19 (22.930)

*30 yanvar 2018-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika




Yanvarın 29-da Heydər Əliyev Mərkəzində “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

Dövlətimizin başçısı konfransda nitq söyləyib.

Prezident İlham Əliyev bildirib ki, bütövlükdə Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası çox uğurla həyata keçirilir. On dörd il ərzində iqtisadi göstəricilərimiz də ümumi inkişafımızın uğurlu dinamikasını əyani şəkildə göstərir.

***

Dövlətimizin başçısı həmin gün Avropa Komissiyasının nəqliyyat və mobillik üzrə baş direktoru Henrik Hololeyin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2018-ci il 29 yanvar tarixli Sərəncamı ilə xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları təltif edilmişlər. Təltif olunanlar arasında Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin əməkdaşları da vardır.

**Məmmədov Asəf Səttar oğlu**

2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə,

**Əliyev Rafael Rza oğlu**
**Həbibbəyli Səhət İsa oğlu**
**Mahmudov Nicat Nazim oğlu**

“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilmişlər.

## Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Sədərək rayonunda icbari tibbi sığortanın tətbiqinin təmin olunması, Sədərək Rayon Mərkəzi Xəstəxanasının işçilərinin sosial vəziyyətinin yaxşılaşdırılması və fəaliyyətin stimullaşdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Sədərək Rayon Mərkəzi Xəstəxanasına publik hüquqi şəxs statusu verilsin.

2. İcbari tibbi sığortanın tətbiqi ilə əlaqədar Sədərək Rayon Mərkəzi Xəstəxanasının işçilərinin aylıq əməkhaqları 2018-ci il fevralın 1-dən 50 faiz artırılsın.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan publik hüquqi şəxsin nizamnaməsini təsdiq etsin və Sədərək Rayon Mərkəzi Xəstəxanasında icbari tibbi sığortanın həyata keçirilməsi ilə bağlı zəruri tədbirləri görərək 2018-ci il iyulun 1-dən publik hüquqi şəxsin fəaliyyətini təmin etsin.

4. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi, Səhiyyə Nazirliyi və Vergilər Nazirliyi bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri — Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 27 yanvar 2018-ci il*

## Davamlı inkişaf və sosial rifah əhalinin alıcılıq qabiliyyətini artırmışdır

***Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq həyata keçirilən məqsədyönlü tədbirlər muxtar respublikamıza tərəqqi, əhaliyə firavanlıq və yüksək rifah bəxş etmişdir. Davamlı inkişafın təmin olunmasında muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası da mühüm rol oynamış, yeni istehsal və xidmət müəssisələri fəaliyyətə başlamış, məşğulluq səviyyəsi yüksəldilmişdir.***

İqtisadi və sosial sahələrdə qeydə alınmış dinamik inkişaf makroiqtisadi göstəricilərin davamlı artımını təmin etmiş, 2007-ci illə müqayisədə 2017-ci ildə ümumi daxili məhsul istehsalı 5 dəfə, sənaye məhsulu 7,9 dəfə, əsas kapitala yönəldilən vəsaitlər 4,5 dəfə, kənd təsərrüfatı məhsulu 3,7 dəfə, nəqliyyat sektorunda yük daşınması 2 dəfə, informasiya və rabitə xidmətləri 3,1 dəfə, pərakəndə əmtəə dövriyyəsi 6,4 dəfə, əhaliyə göstərilən ödənişli xidmətlər 4,7 dəfə artmışdır.

Əhali məşğulluğunun təmin olunması üzrə təkcə 2007-ci ildən 1 yanvar 2018-ci il tarixədək muxtar respublikada 46 min 717 yeni iş yeri açılmışdır. Bunun da 84,7 faizi daimi iş yerləridir. Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq bu gün rəsmi işsiz statusu alan şəxs qeydə alınmamış, məşğul əhalinin sayı 2007-ci ilin sonu ilə müqayisədə 1,3 dəfə artaraq 235,5 min nəfərə çatmışdır.

Yüksək əməktutumlu iş yerlərinin yaradılması əhalinin səmərəli məşğulluğunu təmin etmiş, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı göstəricisi 416 manatı ötmüşdür. 2007-ci ildə bu göstərici 153,9 manat səviyyəsində olmuşdur.



Muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində qazanılan uğurlar, yeni iş yerlərinin açılması, səmərəli məşğulluğun təmin edilməsi əhalinin rifah halını yaxşılaşdırmış, alıcılıq qabiliyyətini yüksəltmişdir. Bunun nəticəsi olaraq 2017-ci ildə muxtar respublikanın pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri 2007-ci illə müqayisədə 6,3 dəfə artaraq 1 milyard 596 milyon manatı ötmüşdür. İstehlak malları üzrə satışın 9,2 faizi ticarət təşkilatlarının, 19,6 faizi kənd təsərrüfatı məhsulları bazarlarının, 17,2 faizi ərzaq, qeyri-ərzaq və qarışıq mallar satışı ilə məşğul olan yarmarkaların və 54 faizi fiziki şəxslərin payına düşmüşdür. Satılmış məhsulların 50,5 faizini ərzaq, 49,5 faizini isə qeyri-ərzaq məhsulları təşkil etmişdir.

Bütün sahələrdə əldə olunmuş uğurlarda, ümumilikdə, muxtar respublikanın intibah dövrünün yaşanmasında müstəsna xidmətləri olan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri görülən işləri yüksək qiymətləndirərək demişdir: ***“Muxtar respublika həyatının bütün sahələrində inkişaf təmin olunmuş, əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Qarşıdakı dövrdə əldə olunan nailiyyətləri daha da artırmalı, səylə çalışmalıyıq”.***

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Smartkarttipli sayğacların quraşdırılması davam etdirilir

Son illərdə muxtar respublikada yeni elektrik stansiyaları tikilib istifadəyə verilib, yarımstansiyaların, elektrik verilişi şəbəkələrinin davamlı fəaliyyəti təmin olunub. Bu sahədə görülən işlərin nəticəsidir ki, elektrik enerjisinə tələbat daxili istehsal hesabına ödənilir. Əldə edilən nəticələr muxtar respublikanın enerji təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərin bəhrəsidir. Smartkarttipli sayğacların quraşdırılmasının davam etdirilməsi enerji israfçılığının qarşısının alınmasında əhəmiyyətli rol oynayıb.

Naxçıvan Şəhər Elektrik Şəbəkəsindən aldığımız məlumatda bildirilir ki, ötən il Naxçıvan şəhərində əhali abonentlərinin mənzillərində 5800 ədəd belə sayğac quraşdırılaraq bu tip sayğacların sayı 20 min 800-ə çatdırılıb. Bundan əlavə, muxtar respublika paytaxtında elektrik enerjisindən sayğacdankənar istifadə edilməsinin qarşısının alınması üçün mütəmadi reydlər keçirilib, əhali arasında maarifləndirici tədbirlər aparılıb.

**Xəbərlər şöbəsi**

## “Muzey günləri” davam etdirilir



***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamı muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişinin təmin olunması ilə yanaşı, həm də qədim oğuz yurdunun tarixi keçmişinin, mədəniyyətinin öyrənilməsində əhəmiyyətli rol oynayır. Sərəncama uyğun olaraq “Muzey günləri”nin davam etdirilməsi məqsədilə muxtar respublikada müxtəlif dövlət orqanlarının çalışan kollektivləri cari ildə də muzeylərimizə ziyarətləri davam etdirirlər.***

Yanvarın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin kollektivləri “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar.

Muzeyin bələdçisi Nigar Cəfərova tamaşaçılara muzey haqqında məlumat verərək bildirib ki, bu mədəniyyət müəssisəsi Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 23 oktyabr tarixli Sərəncamı ilə yaradılıb. Muzeyin yaradılmasında məqsəd Naxçıvan xanlığının Azərbaycanın bu ərazisindəki torpaqlarının qorunub saxlanılmasındakı xidmətləri, eyni zamanda milli dövlətçiliyimizdəki rolunu təbliğ etmək, gələcək nəsillərə çatdırmaqdır. Bildirilib ki, Naxçıvan xanı I Kalbalı xan Kəngərliyə və onun varislərinə məxsus olan bu saray Azərbaycanın orta əsrlər memarlığının nadir incilərindən biridir. Xüsusi memarlıq üslubunda inşa edilən və xalq tətbiqi sənətinin bir çox növlərinin birləşdiyi Xan sarayı orijinal görünüşü ilə seçilir. Kompleksdə, ümumilikdə, 2200-ə yaxın eksponat var ki, bunlardan 400-ə yaxını muzeyin 9 ekspozisiya zalında nümayiş etdirilir. Bu ekspozisiyalar içərisində Naxçıvan xanlığının və Kəngərli nəslinin tarixi ilə bağlı nəşr olunmuş kitablar, Naxçıvan xanlarının şəcərəsi, xanlığın xəritəsi, məişət əşyaları – misgərlik nümunələri, saxsı və çini qablar, qədim kişi və qadın milli geyimləri də nümayiş etdirilir.

Qeyd edək ki, həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin kollektivi Ədəbiyyat Muzeyində, Ali Məhkəmənin kollektivi Naxçıvan Dövlət Tarix Muzeyində olmuşlar.

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları Dövlət Bayrağı Muzeyini, Dövlət Təhlükəsizlik Xidmətinin əməkdaşları Heydər Əliyev Muzeyini, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Bəhruz Kəngərli Muzeyini, Ədliyyə Nazirliyinin əməkdaşları Nəbatat bağını, Fövqəladə Hallar Nazirliyinin əməkdaşları Naxçıvan Dövlət Rəsm Qalereyasını, Dövlət Gömrük Komitəsinin əməkdaşları Cəlil Məmmədquluzadənin ev-muzeyini, İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının əməkdaşları Hüseyn Cavidin ev-muzeyi və Xatirə Kompleksini, Maliyyə Nazirliyinin kollektivi Xatirə Muzeyini, İqtisadiyyat Nazirliyinin kollektivi Cəmşid Naxçıvanskinin ev-muzeyini, Nəqliyyat Nazirliyinin kollektivi “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksini, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi Naxçıvan Dövlət Xalça Muzeyini, Kənd Təsərrüfatı Nazirliyinin kollektivi “Əlincəqala” Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsini ziyarət etmişlər.

Həmçinin muxtar respublikanın şəhər və rayon icra hakimiyyətlərinin, eləcə də mərkəzi icra hakimiyyəti orqanlarının şəhər və rayonlardakı idarə, müəssisə və təşkilatlarının əməkdaşları da rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində fəaliyyət göstərən muzeylərdə olmuşlar.

✍ **Səbuhi HƏSƏNOV**



*Jurnalistin qeydləri*

# Kəndə qayıdan ailə...

Gərməçataq kəndinə işğalçı ermənilərin etdiyi ilk həmlə indiki kimi yadımdadı. Həmin gün hava yaman tutqun idi. Qara buludlar sanki bir-biri ilə vuruşacaq deyə, göy üzündən asılıb qalmış, ildırım şaqqıltısı ətrafı bürümüşdü. Axşamdan başlayan güclü yağış isə torpağı xal-xal bəzəmişdi. Həmin gün kəndimizdə top-tüfəng səsi səngimirdi. Erməni xisləti, nankorluğu yenə baş qaldırmışdı. Dağlar gözəli Gərməçataq düşmən işğalı ilə üz-üzə qalmışdı. Heç yana getməmək, əksinə yurdumuza su salmaq istəyəni qovmaq qərarına gəlmişdik. Yaşlı və orta nəslin nümayəndələri yaxşı bilirlər ki, həmin vaxt Naxçıvan necə də çətin günlər yaşayırdı. Enerji böhranı – zülmət qaranlığa qərq olan yaşayış məntəqələri, ərzaq qıtlığı – sonu görünməyən çörək növbələri və üstəgəl, erməni quldurlarının sərhədyanı kəndlərə basqını. Beləcə, el-obamız, ümumilikdə, muxtar respublikamızın sərhəd kəndləri üçün ağrılı-acılı günlər başlamışdı. Səhəri səngərdə qarşılayıb, axşamı da orada yola salırdıq. Naxçıvanın hər yerindən döyüş zamanı bizim köməyimizə gəlirdilər. Hamımızın qəlbində tükənməz Vətən sevgisi, torpaq təəssübkeşliyi, hünər, qorxmazlıq var idi. Ulularımızdan bizə miras qalan yurda bağlılıq, onu dərin məhəbbətlə sevmək bizim üçün ən güclü ordu, silah-sursat demək idi. Belə çətin günlərdə bu torpağın dahi oğlu Heydər Əliyev dadımıza çatdı, Naxçıvanımızı qorudu, onu hifz etdi, yaşatdı. Yağı düşmənin arzusu, niyyəti puç oldu. Ulu öndərin ətrafında sıx birləşdik, vuruşduq, şəhidlər verdik, amma torpağımızı vermədik, onu qoruyub saxladıq.

Gərməçataqlı Piri İsmayılov söhbətin bu hissəsində əlavə edir ki, o qanlı günləri yola salıb, düşməni yerində oturtduqdan sonra isə gündəlik məişət qayğılarımız başladı. Blokadanın nə olduğunu o illərdə yaşayaraq hiss edirdik. O vaxt rahat yaşayış, dolanışıq, gün-güzəran sahibi olmaq bugünkü kimi asan deyildi. Biz də köçüb şəhərdə yaşamağa başladıq. Deyirlər ədalət topaldır, amma getdiyi yerə gec də olsa, çatar. Aradan 28 il keçib. Və biz yenə də doğulub boya-başa çatdığımız, təmiz havasını udub, saf suyunu içdiyimiz və ən nəhayət, bizim üçün isti ana qucağı olan Gərməçatağa qayıtmışıq. Özü də bizdən başqa, daha 3 ailə doğma yurda qayıdıb.

Piri İsmayılov kəndə qayıdışın konkret səbəblərindən danışır: – Ürəyim doludur, vallah. Götürün, qeyd dəftərçənizi hamısını bircə-bircə yazın. Dövlətimiz yaratdığı şəraitlə, həyata keçirdiyi islahatlarla bizə öyrətdi ki, elə dolanışıq da, yaşayış da, doğma kəndimizdədir. Sadəcə, zəhmət çəkmək lazımdı. İndi Gərməçataq çox dəyişilib, müasirləşib. Dövlətimiz bu dağların qoynunda, işğalçı düşmənlə biraddımlıqda gülüstan yaradıb. Başında topa-topa ağ buludların dolaşdığı bu dağlarda indi biz yox, cəsur Azərbaycan əsgəri dayanır. Özü də əlində ən müasir silahla, qəlbində Vətən sevgisi ilə. Biz də tez-tez onlara baş çəkir, bayram və əlamətdar günlərdə əsgər və zabitlərin yanında oluruq. Bu gün düşmən öz qınında gizlənibsə, mərmi səsi bu kəndə yaddırsa, biz isə o illərdəki kimi ah-vayla yaşamırıqsa, deməli, bunun bir səbəbi var: O da ulu öndərimizin bizə əmanəti olan müstəqil və inkişaf edən Azərbaycan dövləti, qüdrətli və yenilməz Ordumuzdur!



Torpaq sahibi, məhsul yiyəsi olmuşuq, müxbir qardaş. Kəndimizdə elə bir ailə yoxdur ki, onun ayrıca təsərrüfatı olmasın. Dövlət də bizim əlimizdən tutur. Torpağın, suyun verib. Bazarın yaradıb. Deyir, zəhmət çək, əvəzində yaxşı güzəran sahibi ol. Ötən ilin noyabr ayında biri-birinin ardınca Naxçıvan şəhərində “Arıçılıq məhsulları-bal” və “Ailə təsərrüfatı məhsulları” festivalları keçirildi. Həmkəndlilərim Mətləb Quliyev, Lazım Mirzəyev kimi sahibkarlar yaxşı bal satdılar. Mən özüm isə təsərrüfatımda yetişdirdiyim halal nemətləri alıcılara təqdim etdim. Şükür, qazancım da pis olmadı.

Vaxtilə hansı ümidlə, hansı arzuyla buradan köç etmişdiksə, indi həmin şəraitin ən yaxşısı qapımıza dək gəlib çıxıb. Bu gün düşmənin beşaddımlığında yerləşən Gərməçataqda sürətli internet mövcuddur, “Naxtel” mobil operatorundan hər kəs istifadə edir. Yeni iş yerləri açılıb. Yeni mənzillər tikilir. Evlərə daimi işıq, qaz verilir. Həyat yoldaşım Xeyrənsə kənd məktəbində Azərbaycan dili və ədəbiyyat fənnini tədris edir. Mən özüm isə bu yaxınlarda istifadəyə verilən kənd mərkəzində kitabxanaçı işləyirəm. Kəndin mərkəzində əzəmətlə ucalan bu tikililər başqa bir mövzudur. Onları görəndə gənclik illərimə qayıdıram, kədərlənirəm. Deyirəm ki, kaş bizim də uşaqlığımız bugünkü sabitlik, firavanlıq dövrünə təsadüf edərdi. Artıq bizim uşaqlarımız müharibə, qorxu əhval-ruhiyyəsində deyil. Onlar hər cür şəraitlə təmin olunmuş məktəb binasında yaxşı təhsil alaraq həkim, mühəndis, zabit, müəllim olmaq arzusundadırlar. Bunun üçün onların da arxasında dayanan böyük bir güc, qüvvə var ki, o da dövlətimizdir. Heç uzağa getmirəm. Düşmənin muxtar respublika ilə sərhəddə yerləşən kəndlərində acınacaqlı vəziyyət hökm sürür. Tez-tez Naxçıvan televiziyasından izləyirik ki, müəllimlər əməkhaqlarını vaxtında ala bilmir, tədris ocaqlarında istilik yoxdur, valideynlər şəraitsizlik ucbatından uşaqlarını məktəbə göndərmir və sair və ilaxır. Amma biz daha blokada nədi, onu hiss etmirik. Vallah güclü iqtisadiyyatı, qüdrətli ordusu olan Azərbaycanın vətəndaşı olduğumuz üçün qürur duyuruq. Bir valideyn kimi, bir gərməçataqlı kimi bu şəraiti yaradanlara minnətdarıq.

***İsmayılovlar ailəsinin timsalında Gərməçatağa qayıdanlar özlərinin və övladlarının gələcəyini məhz burada görürlər. Kənddən şəhərə doğru aparılan yeniləşmə prosesi muxtar respublikanın dağında da, aranında da, böyük-balaca kənd və şəhərində də eyni şəraiti, eyni yaşayışı təmin edib. Bu isə müstəqilliyimizin, dövlətçiliyimizin, inkişafımızın, rahat yaşayışımızın müəllifi olan ulu öndər Heydər Əliyev yoluna sədaqətin bəhrəsidir.***

**Muxtar RZAZADƏ**
**“Şərqin səhəri” qəzetinin redaktoru**

*İstehsal müəssisələri*

# “Hilal”ın məhsulları daxili bazarda özünəməxsusluğu ilə seçilir





***Muxtar respublikada daxili bazarı yüksəkkeyfiyyətli yerli məhsullarla təmin edən müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən “Hilal” ət və ət məhsullarının emalı müəssisəsidir.***

Müəssisənin rəhbəri Fikrət Əliyarovla söhbət zamanı dedi ki, insanı sağlam, daxilən güclü saxlayan zəhmətdir, işgüzarlıqdır. Hədər yerə deyilməyib ki, zəhmət çəkənin ruzisi bol olar. Bu hikmətli ifadəni əldə rəhbər tutaraq “Hilal” ət və ət məhsulları müəssisəsini yaradıb, məhsul istehsalına başladıq. Onu da deyim ki, bugünkü səviyyəyə gəlib çatmaq heç də asan olmadı. Belə ki, 2000-ci ildə müəssisə üçün bina icarəyə götürdük. Lakin həmin binada müasir istehsal sahələrinin yaradılması və əlavə işçi qüvvəsinin cəlb edilməsi imkanı məhdud olduğundan yeni binanın inşası zərurəti yarandı.

Naxçıvanda sahibkarlar üçün geniş imkanların yaradıldığını vurğulayan həmsöhbətim dedi ki, digər sahibkarlar kimi, o da dövlət qayğısından bəhrələnib. 2009-cu ilin mart ayında müəssisə üçün torpaq sahəsi ayrılaraq layihəyə uyğun tikinti işləri aparılıb. İstehsal sahəsi, hazır məhsulların hisə verilməsi üçün sobalar, xammal və məhsulların saxlanılması üçün soyuducu anbar, laboratoriya, yeməkxana və digər yardımçı otaqlardan ibarət olan inzibati bina 2010-cu ilin mart ayında istifadəyə verilib. Müxtəlif çeşiddə daha keyfiyyətli ət məhsulları istehsal etmək məqsədilə müasir texnoloji avadanlıqların alınması üçün 2011-ci ilin fevral ayında Sahibkarlığa Kömək Fondundan 120 min manat güzəştli kredit ayrılıb. Həmin vəsait hesabına İspaniyanın “Fatosa”, Almaniyanın “Handtmann” və “POLY-Clip” firmalarından istehsal gücü saatda 3 ton olan müasir avadanlıqlar alınıb quraşdırılıb, istehsal prosesi tam avtomatlaşdırılıb.

Öyrəndik ki, müəssisədə istehsal prosesi mərhələli şəkildə həyata keçirilir. Belə ki, ilk olaraq ət laboratoriyada analiz edilir, daha sonra istehsala buraxılır. Mənfi 20 dərəcəyədək dondurulmuş ət avtomatik üsulla tikələrə bölünüb üyüdülür. Reseptə uyğun olaraq hazırlanan ət məhsulu təbii bağırsağa və ya süni qılaflara doldurulub, ayrı-ayrı hissələrə bölünərək sancaqlanır. Sonrakı mərhələdə termokamerada qurudulub bişirilərək hisə verilir. Hazır məhsul laboratoriyada analizdən keçirildikdən sonra satışa çıxarılır. Xammal soyuducu anbarda mənfi 18 dərəcədə, hazır məhsul isə müsbət 8-10 dərəcədə xüsusi kameralarda saxlanılır.

Bütün göstəriciləri ilə seçilən yerli məhsul artıq xaricdən idxal olunan keyfiyyətsiz məhsulları bazardan sıxışdırıb çıxarır. Elə ayrı-ayrı ticarət şirkətlərindən alınan sifarişlər də dad-tamı ilə seçilən bu yerli məhsula tələbatın çox olduğunu göstərir. Daxili bazarı yüksəkkeyfiyyətli məhsullarla təmin edən müəssisədə 2015-ci ildə “Qəlyanaltı” adı ilə əla növ sosiska istehsalına başlanılıb. Ümumilikdə, burada 15 çeşiddə yüksəkkeyfiyyətli bişmiş, hisə verilmiş kolbasa, sosiska və sardelka istehsal edilərək “Hilal” əmtəə nişanı ilə satışa çıxarılır. Nəfis tərtibatlı xüsusi paketlərdə ayrı-ayrı ticarət obyektlərində istehlakçılara təqdim olunan məhsulların üzərində tərkibi, saxlanma şəraiti, istehsal tarixi və saxlanma müddəti göstərilir ki, bu da ərzaq məhsullarının istehsalında vacib amillərdən biridir. Müəssisə həm də işsizliyin aradan qaldırılmasına öz töhfəsini verib. Belə ki, hazırda burada 12 işçi çalışır. Onlar üçün gözəl iş şəraiti yaradılıb, yüksək əməkhaqqı ilə təmin olunublar.

*Bəli, ət və ət məhsulları bu gün hər birimizin süfrəsini bəzəyir. Xüsusən də qış aylarında bu təamlardan dadmaq arzuolunandır. Naxçıvanda fəaliyyət göstərən, xüsusi sanitariya qaydalarına riayət olunan müəssisələrin məhsullarını seçsək, həm də sağlamlığımızı qorumuş olarıq. Bu mənada, “Hilal” əmtəə nişanı ilə satışa çıxarılan məhsullardan istifadə etmək məqsədəuyğundur.*

**Nail ƏSGƏROV**

***Yaşayış evi və digər daşınmaz əmlak hər bir ailə üçün vacib tələbatlardan biridir. İnsanlar normal ev şəraiti yarada bilmək üçün uzun müddət vaxt və böyük miqdarda vəsait sərf edirlər. Hər hansı gözlənilməz hadisədən yaşayış evinə zərər dəydikdə isə bu, vətəndaşlar üçün kifayət qədər ağır maddi itkilər yaradır. Ona görə də evlərin və digər daşınmaz əmlakın gözlənilməz bədbəxt hadisələrin zərərlərindən sığortalanması belə zərərlərdən qorunmağın əsas yoludur. Çünki əksər hallarda daşınmaz əmlaka dəymiş zərərlərin vətəndaşın öz imkanları hesabına aradan qaldırılması çətin başa gəlir.***

# Daşınmaz əmlakın icbari sığortası hər kəs üçün vacibdir

Gözlənilməz hadisələrdən daşınmaz əmlaka müxtəlif zərərlər dəyə bilər. Belə ki, təkcə yanğın və zəlzələ deyil, digər elə gözlənilməz hadisələr də vardır ki, onların nə zaman baş verə biləcəyini əvvəlcədən demək çətindir. Sıxışmış qaz və buxar partlayışı, elektrik naqillərində yaranan qısaqapanma, su, istilik, kanalizasiya kəmərlərinin və yanğın söndürmə sistemlərinin qəzası, digər tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən daxil olan su daşınmaz əmlaka zərər vura bilər. Bundan başqa, baş verə biləcək güclü külək, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi və habelə üçüncü şəxslərin hərəkətləri nəticəsində də daşınmaz əmlak məhv ola, yaxud hər hansı digər formada zərər görə bilər. Daşınmaz əmlaka müxtəlif dərəcədə zərər vuran və sığorta hadisələri adlandırılan belə gözlənilməz təsadüfi hallara həmişə, hər yerdə rastgəlmə ehtimalı vardır.

Sığorta hadisələri nəticəsində yaşayış evlərinin konstruktiv elementlərinə, otaqlara, o cümlədən şüşələr də daxil olmaqla, qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, habelə istilik sisteminə aid borulara, rabitə, elektrik və digər naqillərə, bəzək elementlərinə, eləcə də bütün növ xarici və daxili mala və suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlər bərpa olunduqda xeyli həcmdə maddi vəsait tələb olunur. Statistika göstərir ki, daşınmaz əmlakını vaxtında sığorta etdirməmiş vətəndaşlar bu zaman ciddi maddi çətinliklərlə üzləşirlər. Nəticədə, təkcə bir nəfər deyil, bütün ailə üzvləri də çıxılmaz vəziyyətə düşür. Ona görə də bunun baş verməməsi, bütün ailənin sosial vəziyyətinin ağırlaşmaması üçün daşınmaz əmlakın icbari sığortası dövlət tərəfindən qanunla təsbit olunmuş qaydada aparılır. Əsas məqsəd isə burada vətəndaşların sosial müdafiəsidir. Belə ki, Naxçıvan şəhərində yaşayan vətəndaşlar sığorta məbləğinə nisbətən cüzi miqdarda sığortahaqqı ödəməklə bu zəmanəti ala bilərlər.

Hazırda Naxçıvan Muxtar Respublikasında vətəndaşlara məxsus daşınmaz əmlak kimi yaşayış evləri, binalar, mənzillər bir qayda olaraq icbari sığorta olunur. Burada məqsəd sığorta hadisələri baş verdiyi zaman daşınmaz əmlakın məhv olması və yaxud hər hansı formada zərər görməsi ilə əlaqədar vətəndaşlara dəymiş zərərin əvəzinin ödənilməsidir. Bu sığorta növündə qaydalar və şərtlər yalnız qanunla müəyyən edilir. Başqa sözlə, daşınmaz əmlakın sığortalanması üçün sığorta hadisəsi hesab olunan hallar qanunla dəqiq şəkildə müəyyənləşdirilmişdir. Bu sığorta növü zamanı yuxarıda qeyd olunduğu kimi Naxçıvan şəhərində yaşayan vətəndaşlar öz daşınmaz əmlaklarını 40 manatlıq sığortahaqqı ödəməklə 20 min manata, muxtar respublikanın rayonlarında yaşayan vətəndaşlar isə 30 manatlıq sığortahaqqı ödəməklə isə 15 min manat məbləğində sığortalaya bilərlər. Onu da qeyd etmək lazımdır ki, sığortahaqqının bu məbləği minimum məbləğ kimi müəyyən edilmişdir. Həmin məbləğdən artıq qiymətləndirilə bilən daşınmaz əmlak onun sahibi ilə razılaşdırılmış müqaviləyə əsasən daha artıq məbləğə sığortalana bilər.

Daşınmaz əmlakın icbari sığortası ölkəmizdə həyata keçirilən sosial siyasətin mühüm bir hissəsidir. O, vətəndaşların mənafelərinin təmini baxımından çox faydalıdır. Çünki daşınmaz əmlakın sığortası hadisə baş verən zaman icbari sığorta müqaviləsi bağlamış və sığorta müqaviləsi qüvvədə olan vətəndaşlara tam sığorta təminatı verir. Bu da insanların yaşayış səviyyəsinin yüksəlməsi üçün əsas şərtlərdən biridir.

**Əli CABBAROV**

Turizm

# Şahbuzun möcüzəli təbiəti qış turizmi üçün də əlverişlidir



### *Turizmin inkişafında əsas şərt*

Turizmin inkişafında ən vacib şərtlərdən biri infrastrukturdur. Bu gün ölkəmizdə turizm üçün çox əlverişli kəndlər var ki, həmin kəndlərdə infrastruktur, xüsusilə də yol təchizatı müasir tələblərə cavab vermədiyindən orada turizmi inkişaf etdirmək olmur. Lakin bu, Naxçıvanda tamamilə fərqlidir. Artıq muxtar respublikamızda çox az sayda kəndlərimiz qalıb ki, onların da abadlaşdırılması mərhələli şəkildə həyata keçirilməkdədir.

Şahbuz muxtar respublikamızda sosial-iqtisadi inkişafdan bəhrələnən rayonlarımızdan biridir. Dağlıq ərazidə yerləşən bu bölgədə illər öncə bərbad yollar, Sovetlər Birliyi dövründən qalma köhnə, yararsız binalar burada miskin bir görkəm yaratmaqla yanaşı, əhalinin həyat şəraitini də həddən artıq çətinləşdirmişdi.

Muxtar respublikamızda aparılan quruculuq işləri, əsasən, ucqarlardan başladığından Şahbuz rayonu da uzun bir yeniləşmə dövrünə qədəm qoydu. Bu gün rayonun ən ucqar kəndlərinə uzanan yollar abadlaşdırılıb, yeni təhsil, səhiyyə, mədəniyyət, ticarət obyektlərinin müasirliyi, gözoxşarlığı Şahbuzun möcüzəli təbiəti ilə bir harmoniya yaradıb. Elə bu da ucqar dağ rayonunda turizmin inkişafı üçün stimul olub. İndi rayona gələn turistlər bu harmoniyanı təəccüblə qarşılayır və buradan yüksək təəssüratla ayrılırlar.

### *Bölgənin coğrafi mövqeyi və turizm*

Şahbuz öz gözəlliyi ilə turistləri ilin bütün fəsillərində səsləyir. Bu rayon həmçinin turizmin bir neçə növü üçün əlverişli sayılır. Yaz, yay burada hava çiçək rayihəsi verir. Gələn qonaqlar da dəfələrlə bunu vurğulayırlar: – "Elə bil havadan çiçək ətri gəlir". Niyə də gəlməsin ki?.. Yazda-yayda dağların zirvəsindəki qardan şuxluq, Günəşdən hərarət alaraq yamaclara, düzlərə səpələnən min bir adda al-əlvan çiçəklərin yurdu, məkanıdır Şahbuz. Quzeylərindən güneylərinə doğru yaşıl rəngin bütün çalarlarının bir-birini əvəz etdiyi əsrarəngiz təbiət gözəlidir Şahbuz. Buradakı təmiz hava, saf sular, şəfa bulaqları, təbii nemətlər, insanların qonaqpərvərliyi hər bir turistin görmək istədiyi məqamlardır.

Rayonda 140-a yaxın tarix-mədəniyyət abidəsi qeydiyyata alınmışdır ki, 6-sı dünya əhəmiyyətlidir. Onların böyük əksəriyyəti arxeoloji abidələrdir. Qədim tarixi və mədəni keçmişi özündə yaşadan, zəngin ekspozisiyaya malik rayon Tarix-Diyarşünaslıq Muzeyi daim bura gələn turistlərin marağına səbəb olur.

"Xalq şairi Məmməd Arazın ev-muzeyinin yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 28 iyun tarixli Sərəncamı ilə Şahbuz rayonunun Nursu kəndində yaradılan və şairin doğum günü – 1 dekabr 2014-cü ildə istifadəyə verilən ev-muzeyi bu kəndi turistlərin ilin bütün fəsillərində ən çox üz tutduqları ünvanlardan birinə çevirib.

Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən Ağbulaq gözəl təbiəti, heyrətamiz coğrafi mövqeyi olan turizm üçün çox əlverişli kənddir. Burada 2013-cü ildən fəaliyyət göstərən istirahət mərkəzi kənddə turizmin inkişafına təkan vermişdir. Ağbulaq İstirahət Mərkəzi 3 yaşayış korpusundan və yeməkxana binasından ibarətdir. İkimərtəbəli və 56 yerlik korpuslarda, ümumilikdə, 38 otaq mövcuddur. Otaqlarda istirahət üçün hər cür şərait yaradılmış, havalandırma sistemləri quraşdırılmış və sürətli internetlə təchiz edilmişdir. İstirahət mərkəzində kənd məhsullarının satışı mağazası da vardır. Kompleksin ərazisinə 2 kilometr məsafədən içməli su xətti çəkilmiş, ərazi dəmir məhəccərlə hasarlanmışdır. Həyətdə futbol meydançası yaradılmış, uşaq əyləncə qurğuları qoyulmuş, ağac və gül kolları əkilmişdir.

Dağların qoynunda inşa edilən mərkəzə abad yollarla neçə-neçə döngələri keçərək sanki dağların ətəyindən zirvəsinədək olan məsafəni qət edərək çatırsan. Buradan ətrafa nəzər saldıqda səndən neçə yüz metr aşağıda göz uzandıqca uzanan sahələr görünür. Düşünürsən ki, qış turizmi inkişaf etdikcə, bəlkə də, yaxın gələcəkdə burada böyük bir dağ xizək kompleksi də yaradıla bilər. Onda qış turizmi üçün Ağbulağa üz tutanların sayı-hesabı olmaz.

Şahbuzun Tanrının sanki turizm məkanı üçün yaratdığı Batabat yaylağı isə yay-qış bura gələnlərin heyranlıqla ayrıldıqları bir təbiət möcüzəsidir. Burada fəaliyyət göstərən "Batabat" otel-restoranı soyuq qış günlərində Batabata gələn turistləri hərtərəfli şəraiti ilə qarşılayan, onların rahatlığı üçün bütün imkanları olan məkandır.

Rayonun Kükü kəndində 3, Ağbulaq kəndində 5, Külüs kəndində 1, Biçənək kəndində 2 olmaqla, ümumilikdə, turistlərə 11 ev təklif olunur. Xarici qonaqların tələbatını ödəyəcək səviyyədə olan bu evlərin şəkilləri və ünvanları Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin internet saytında da yerləşdirilib. Həmin evlərdən artıq həftəlik, aylıq istifadə edənlər də olub. Bütün bunları nəzərdən keçirdikdən sonra belə qənaətə gəlmək olur ki, Şahbuz rayonunun coğrafi mövqeyi burada eko-turizm, kənd yaşıl, müalicə, qış və digər turizm növlərinin inkişafına böyük imkan yaradır.





### *Qış turizminə üstünlük verənlər*

Turizm dedikdə, ilk növbədə, yayın isti günlərində dincəlmək, sərinləmək üçün insanların ölkədaxili və xarici ölkələrdəki istirahət məkanlarına üz tutmaları başa düşülür. Lakin Ümumdünya Turizm Təşkilatının statistik göstəricilərinə görə, hər il dünya turistlərinin, təxminən, 30-35 faizi qış aylarında istirahət etməyə üstünlük verirlər. Bu, bir tərəfdən insanların məşğulluq sahəsi ilə bağlıdırsa, digər tərəfdən sözsüz ki, onlarda qış fəslinə olan sevgi, qışın romantik görüntülərinə heyranlıqdır. Qış turizmi dedikdə insanın gözləri önündə, ilk olaraq, yüksək dağlıq ərazilərdə, əsasən, xizək idman növü canlanır. Lakin bu, tək o səbəbdən deyil. İnsanlar qış turizminə üstünlük verməklə fərqli bir istirahət etmiş olduqlarını düşünürlər. Yüksəkliklərin təmiz havasından yararlanmaq, təbii bitki örtüyünün verdiyi oksigendən faydalanmaq, ailəliklə xoş istirahət etmək, yaşadıqları həyatın streslərindən kənarlaşmaq, istirahət etdikləri bölgənin mədəniyyətini araşdırmaq istəyi qış turizmini son illər daha çox diqqətçəkən turizm növlərindən birinə çevirmişdir.

### *Şahbuzun "qış nağılı"*

Batabatın, Ağbulağın, Kükünün, Biçənəyin, Nursunun, Keçilinin, Külüsün qış fəslini görənlər, məncə, uzun illər bu gözəl təəssüratlardan ayrıla bilməzlər. Bəlkə də, söylədiklərim burada yaşayan insanlar üçün adi ola bilər. Təbiidir, axı bu yurd yerlərində yaşayanlar o gözəllikləri daim görür. Lakin kənardan gələn insanlar möcüzəli təbiətlə qarşılaşırlar. Dəniz səviyyəsindən neçə yüz metr yüksəklikdə yerləşən bu yerlərin zirvəsi sanki göyə söykənən dağlar, sıldırım qayalar, göz baxdıqca uzanan dərələr, bu dərələrdə yağan qarın xüsusi fiqurlar yaratdığı kollar, dağlarda, yamaclarda yalnız bu şaxtalara tab gətirə bilən quşların, heyvanların ləpirləri, çayların üzərindəki körpü yaradan, ağaclardan sallanan salxım buzlar turistin tamaşa edib yorğunluğunu çıxarmaq istədiyi mənzərələr deyil? Batabatın bənzərsiz təbiəti, burada gölün içərisində yayda "Üzən ada"nın şaxtadan hərəkətsizləşmiş qarlı qışını seyr etmək, Zorbulağın, Söyüdlü bulağın sıldırım buzlar altından həzin qış nağılını kim dinləmək istəməz? Keçilidə Camal qalasının, Çınqıllı bulağın, Kükündə Qanlıgölün, Dərəboğazının, Pirdərəsinin tamaşasından kim doyar ki?...

Yayı bir, qışı bir başqa olan Şahbuzun təbii gözəllikləri haqqında saatlarla danışmaq olar. Lakin bu gözəllikləri canlı olaraq görmək, duymaq tam başqadır.

### *Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır*

Yayda da, qışda da dincəlməyi planlaşdıran insanlar ölkədaxili, yoxsa xarici turlar seçimi qarşısında qalırlar. Düşünürəm ki, öncə hər bir insan ölkəsi daxilində olan turizm bölgələrinə üz tutmalı, istirahət etməlidir. Doğma Vətənimizi hərtərəfli tanıyandan sonra xarici ölkələrə səfərlərimiz özümüzünkü ilə onlarınkını müqayisə etməyimizə, yaxşıları özümüzdə də görmək istəyimizə şərait yaradar.

***Qış fəsli olsa da, deyəsən hələ ki, təbiət öz ağ donuna tamamilə bürünmək "fikrində" deyil. Lakin Şahbuzda istirahət seçənlər istədikləri mənzərəni burada tapa bilərlər. Ümidvarıq ki, aid təşkilatlar Şahbuzun turizm potensialının reklamlarını genişləndirməklə bura turistləri daha çox cəlb edə biləcəklər. Və bu gözəl bölgədə olan hər bir turist hər dəfə iştirahət barədə düşünəndə ruhuna hakim kəsilmiş "Şahbuzun hüsnünü eylədikcə yad, xəyalım bir anda açır qol-qanad" fikirləri ilə yenə bu yurd yerini seçəcəkdir.***

**Mətanət MƏMMƏDOVA**

# Açıq dərs təşkil olunub

***"İnteraktiv açıq dərs" layihəsi çərçivəsində AMEA Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə bölmədə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında cari ilin ilk açıq dərsi təşkil olunub.***

Bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Yeni və ən yeni tarix şöbəsinin aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin "Azərbaycanda xanlıqların yaranması: Naxçıvan xanlığı" mövzusunda keçdiyi dərsdə şagirdlərə Azərbaycan xanlıqları arasında özünəməxsus yeri olan Naxçıvan xanlığının yaranması, ərazi bölgüsü, idarə sistemi, dövlət atributları, ordu quruculuğu, diplomatik münasibətləri və Türkmənçay müqaviləsi haqqında geniş məlumat verilib. Bildirilib ki, Naxçıvan xanlığının əsası Nadir şah Əfşarın ölümündən sonra 1747-ci ildə Kəngərli tayfasından olan Heydərqulu xan tərəfindən qoyulub. Tədqiqatçı-alim Naxçıvan xanlığının ərazisi 1747-1797-ci illərdə 9428,7 kvadratkilometr, 1798-1828-ci illərdə isə 4642, 83 kvadratkilometr olduğunu deyib.

Musa Quliyev Naxçıvan xanlığının qonşu xanlıqlar və dövlətlərlə yaratdığı əlaqələrdən bəhs edərək onun mərkəzi Naxçıvan şəhərinin Orta və Yaxın Şərq ölkələrindən Rusiya və Avropaya gedən ticarət yollarının üstündə yerləşdiyini və nəticədə, bir çox ölkələrin hədəfində olduğunu diqqətə çatdırıb. Alim tarixi faktların Naxçıvan və İrəvan xanlıqlarının qədim Azərbaycan torpaqları olduğunu sübut etdiyini deyib.

Ümummilli liderimiz Heydər Əliyevin ***"Mən daha çox istərdim ki, Naxçıvan xanlığının tarixi çox gözəl yazılsın. Naxçıvan xanlığının çox böyük tarixi var. Bu xanlıq nə vaxt yaranıbdır, fəaliyyəti nədən ibarət olubdur? Axı Naxçıvanı idarə ediblər. İrəvan xanlığı var. Naxçıvan xanlığı ilə İrəvan xanlığı bir-biri ilə çox bağlı idi... Naxçıvan xanlığını siz dərindən öyrənəndə, mütləq İrəvan xanlığına gedib çıxacaqsınız..."*** sözlərini xatırladan Musa Quliyev Naxçıvan xanlığının tarixinin hərtərəfli araşdırılmasının ulu öndərin ölkəmizə rəhbərlik etdiyi dövrdən başlandığını söyləyib.

İnteraktiv dərs, ümumilikdə, muxtar respublikanın 215 ümumtəhsil məktəbində izlənilib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

***Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatı idarə heyətinin yığıncağı keçirilib.***

# Yığıncaq keçirilib

Yığıncaqda təşkilatın sədri Mirməcid Seyidov məruzə ilə çıxış edərək ötən il görülən işlər barədə danışıb. Qeyd olunub ki, 2017-ci ildə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının aidiyyəti təşkilatlarla əlaqələri daha da möhkəmlənib, müxtəlif mövzularda silsilə tədbirlər hazırlanıb. Belə ki, hesabat ilində təşkilat, onun şəhər və rayon şöbələri tərəfindən 30-dək tədbir keçirilib.

Vurğulanıb ki, təşkilatın həyata keçirdiyi tədbirlərin əsas məqsədlərindən biri gənc nəslə vətənpərvərlik hisslərinin aşılanması və onların doğma yurda məhəbbət ruhunda tərbiyə edilməsindən ibarətdir. Buna görə də bölgələrdə milli qəhrəmanlarımızın, şəhidlərimizin xatirəsinə həsr olunmuş tədbirlərin təşkilinə daha ciddi önəm verilib, onların qəhrəmanlıqla dolu həyat yolu televiziya və mətbuatda işıqlandırılıb.

Tədbirdə Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının şəhər və rayon şöbələrinin sədrləri çıxış edərək ötən il görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışıblar.

**Xəbərlər şöbəsi**

Ailə və cəmiyyət

## Sizcə də bir yerdən başlamaq lazım deyilmi?

***Deyirlər insanı qarşılıqsız sevgi ilə daha çox valideynləri sevər. Bu sevgiyə baxmayaraq, bəzən valideyn ilə övlad arasında müəyyən anlaşmazlıqlar da olur. Hətta belə hallarda vəziyyət o həddə çatır ki, valideyn başqalarıyla dil tapdığı halda, övladları ilə dil tapa bilmir. Bəs necə olur ki, valideyn-övlad münasibətləri bu həddə çatır? Daha doğrusu, övladları ilə aralarında olan bağı qoparmamaq üçün valideynlər nə etməlidirlər?***

Mövzu ilə bağlı psixoloq Şahnaz Məmmədova söhbətimiz zamanı bildirdi ki, bəzi valideynlər övladlarını tərbiyə etməyə onları mühakimə etməklə, irad bildirməklə başlayırlar. Ancaq "Mən böyüyəm, hər zaman məsləhət verə bilərəm və məsləhətim də mütləq düzdür" fikri ilə uşağa heç nə aşılamaq mümkün deyil. Əksinə onda qıcıq yaradırlar. Belə hallarda uşaqlar özünü müdafiə etməyə çalışır, valideynin təzyiqlərindən yaxa qurtarmaq üçün müxtəlif vasitələrə əl atırlar.

Azərbaycan ailəsində valideynlərin öz övladlarına olan məhəbbəti, həssaslığı hamıya məlumdur. Onların bəzi səhvləri elə övlada olan sevgilərindən irəli gəlir, bunun ifrat dərəcədə olması bəzi fəsadlara gətirib çıxarır. Uşağa ilk olaraq özünəinam qazandırmaq lazımdır. Kiçik yaşlardan "sən yorulma, mən edərəm", "sən getmə, mən gətirərəm", "sən bacarmazsan, mən həll edərəm" deməklə onlara özünəinam hissi aşılaya bilməzlər. Belə olduqda uşaq gələcəkdə də valideynindən daimi olaraq nəsə etməyini gözləyir. Bunun özü də zamanla onlar arasındakı problemlərə səbəb olur.

Şahnaz Məmmədova qeyd edir ki, övlad böyüdükcə valideynin ondan gözləədikləri də artır. Deyək ki, məktəbəqədər yaşında olan uşaqdan təkcə sözə baxmasını, nadinclik etməməsini istəyirlərsə, böyüdükcə dərsləri yaxşı oxumasını, bacarıqlı şagird, yaxud da fərqlənən bir tələbə olmasını gözləyirlər. Qısaca, onlardan yaşıdlarından bir addım öndə olmalarını istəyirlər. İstədikləri kimi bir övlad olmayanda kiminləsə müqayisə etməyə çalışırlar. Bu müqayisələrlə uşaqlarda olan özünəinamı sındırmaqla bərabər, onunla olan bağları da qoparmış olurlar.

Hər bir valideyn istəyər ki, övladı savadlı, intellektli olmaqla yanaşı, eyni zamanda müxtəlif bacarıqlara da yiyələnsin. Yəni bir çox peşə və sənət sahələrində də özünə yer tapsın. Onu da bilmək lazımdır ki, valideynlərdən daha çox bunu məhz elə uşaqlar istəyir. Çünki kiçik yaşlarından çalışmaları, hərəkətləri, bir sözlə, etdikləri müsbət istiqamətli hər şey valideynin alqışını qazanmaq üçündür. Düşünür ki, əgər bunu etsəm, valideynim mənimlə fəxr edər. Lakin arzulara aludə olub, uşağı həddindən çox yükləmək də doğru deyil. Hər bir yaşın özünün qavrama həddi var və valideynlər bunu nəzərə almalıdırlar. Uşağın istirahətə, gəzməyə, ən əsası isə valideynlə ünsiyyətə də vaxtı qalmalıdır.

Psixoloq deyir: "Bəzən valideynlər uşaqlarının aqressiv olması ilə əlaqədar bizə müraciət edirlər. Uşaqla söhbətdən başa düşürük ki, problemin qaynağı valideynin övladı ilə ünsiyyət qurmaması, onunla arasında mənəvi bağ yaratmamasıdır. Uşaqlar diqqət istəyirlər. Bunu görməyəndə isə özlərinə qapanırlar. Yəni valideyn olmaq təkcə uşağı dünyaya gətirmək, maddi baxımdan təmin etmək demək deyil. Uşağa daim diqqət yetirmək lazımdır. Məsələn, onu maarifləndirməli, məsləhətlər verməli, problemlərini dinləməlidirlər. Yalnız övladı ilə deyil, onun ətrafındakı dostları ilə də maraqlanmalı, gün ərzində eyni mühiti paylaşdığı insanları da tanımalıdırlar. Övladını öz problemləri ilə bezdirməməli, onun qarşısında həmişə güclü görünməlidirlər. Həm də elə güclü ki, o, bütün problemlərini valideynin həll edə biləcəyindən əmin olsun. Könül rahatlığı ilə onu narahat edən nə varsa, valideyninə danışsın. Övladı üçün hər şey etməli, lakin hər fürsətdə bunu dilə gətirərəndən olmamalıdırlar. "Mən sənin üçün bunu etdim", "onu aldım", "filan qədər pul xərclədim" və sair. Əks təqdirdə, bir müddət sonra o, valideyndən heç nə istəməyəcək qədər soyuyacaq, zamanla isə tamamilə yadlaşacaq".

Texnologiyanın inkişaf etdiyi, gənclərin sosial şəbəkələrdə fəallıq göstərdiyi bir zamanda valideynlərin daha diqqətli olmasının əhəmiyyətini qeyd edən Şahnaz Məmmədova bəzi gənclərin onları mühakimə etmədiyinə görə tanımadıqları adamları həmsöhbət seçməyi daha üstün tutduqlarını vurğulayır. Bu isə bir sıra hallarda mənfi nəticələr verir.

Uşaq bir şeyi inadla istədikdə valideynlər bəzən özlərini haqlı sayaraq ona şiddət tətbiq edirlər. Onlar uşağın başa düşəcəyi dillə yox, öz yaşıdlarıyla danışırmışlar kimi davranırlar. Bu isə səhv bir addımdır. Cəza alan, döyülən uşaqlarda qorxu qalmır və azadlığa can atırlar. Onlar öz istədiklərini edirlər. Ailədaxili münaqişələri olan uşaqlarda istənilən mübahisəli mühit onlar üçün adiləşir.

Şahnaz Məmmədova bildirir ki, uşaqlarla başa düşəcəkləri şəkildə davranılmalı, onlarla yaşlarına uyğun tərzdə danışılmalıdır. Məsələn, əgər uşaq həddindən artıq şokolad yeyir və bu da valideyni narahat edirsə, dava-dalaşla, ağladaraq əlindən almaq yerinə müxtəlif misallarla ondan çox istifadənin verə biləcəyi ziyandan danışmalıdır. Ən yaxşı yol isə nağıllardır. Gecə kiçik bir nağıl danışa və nağıldakı qəhrəmanın çox şirniyyat yeməyin fəsadlarından xəbəri olduğu üçün ondan qədərində istifadə etdiyini və sair deyə bilərlər. Görəcəklər ki, səhəri gün siz heç nə etmədən uşağın özü könüllü olaraq şirniyyatdan bir qədər uzaq duracaq. Bütün narahatlıqları bu yolla aradan qaldırmaq olar. Lakin valideynlərin bəziləri laqeyd olur. Özünə qarşı hansı tərbiyə metodundan istifadə edilibsə, onu eynilə övladının da tərbiyəsində təkrarlayır. Halbuki zamanında özü də kiçik yaşlarında bu metodla razılaşmırdı. Bəs indi niyə öz övladına tətbiq edir?

Ənənəvi tərbiyə metodlarının bəzisi təsirli olsa da, hər bir valideyn bu işdə maariflənməli, öyrənməli, bəzi məsələləri araşdırmalıdır. Valideynlərin bir qismi düşünür ki, mən vaxtilə bunu tətbiq ediblər, mən də övladıma eynisini tətbiq edəcəyəm. Eləsi də var fikirləşir ki, məni filan şeydən məhrum ediblər, amma mən öz uşağımı sərbəst buraxacağam. Bunların hər ikisi səhv yanaşmadır. Hər valideynin özünəməxsus tərbiyə metodu olmalı, uşağın fərdi-psixoloji keyfiyyətləri nəzərə alınmalıdır.

Bəzi valideynlərin başqa bir valideynin təsirinə düşməsi halları ilə də rastlaşırıq. Məsələn, bir valideyn deyir ki, mənim də övladım əvvəl kompüterlə çox vaxt keçirirdi, mən filan addımı ataraq onu bundan uzaqlaşdırdım və sair. Valideyn gəlib birdən-birə həmin metodu övladına tətbiq edəndə uşaqda asistemlik yaranır. Yəni illərdir ki, öyrəşdiyi sistemdən ona tamamilə yad bir sistemə keçid alınır. Bu da həmişə yaxşı nəticələr vermir.

Qeyd edək ki, beyində olan dalğalardan asılı olaraq uşaq axşam yuxuya gedən vaxt verilən tövsiyələri daha yaxşı qavrayır. Çünki yuxuya gedən zaman onun şüuraltı açıq olur. Bəlkə də, buna görə nənələrimiz nağılları məhz elə yuxu saatlarında danışırmışlar. Ona görə ki, nağıllarda bizi pis yola çəkəcək heç nə yoxdur. Ümumiyyətlə, nağılın, laylanın hər birinin həyatımızdakı mahiyyətini dərk etməliyik. Təəssüflər olsun ki, bəzi valideynlər müasirlik adıyla bu ənənələri davam etdirmirlər. Lakin bu, heç də müasirlik deyil. Müasir insan bütün müsbət təcrübələri həyatında tətbiq etməlidir.

Psixoloq onu da bildirir ki, uşaq eşitdikləri ilə deyil, daha çox gördükləri ilə tərbiyə olunur. Yəni onlara nə deyilməsindən çox, özünün gördükləri daha vacibdir. Məsələn, gənclik illərində dərsdən qaçmağından, valideynin üzünə ağ olmağından, nadincliyindən danışan valideyn uşaqdan sağlam tərbiyə gözləyə bilməz.

Valideynlər övladlarını məcburiyyət qarşısında qoymadan onlara yol göstərməlidirlər. Bəzi valideynlər övladlarının ixtisas seçimindən tutmuş həyat yoldaşı seçiminə qədər bir çox qərarlarına qarışırlar. Qəbul etməliyik ki, bütün bunlar onu bizdən soyudan səbəblərdəndir. Valideynlər daha təcrübəli olduqlarından dost seçimində məsləhətlər verə, müdaxilələr edə bilərlər, lakin onların həyatında, necə deyərlər, kəskin söz sahibi olmaq düzgün deyil.

Psixoloqun fikrinə görə, valideyn arzusunun real sərhədləri olmalıdır. Bəzən gənclər sırf valideynlərinin arzusu ilə hərəkət edərək sevmədiyi ixtisası seçir, ancaq təhsilini başa vurduqdan sonra bu sahədə işləmək istəmirlər. Yəni, sizcə, bu zaman övladınızın ömründən illər almırsınızmı? Axı o, sizin arzularınızı yerinə yetirəcəksə, bəs öz xəyallarını nə vaxt reallaşdıracaq? Zənnimcə, valideyn-uşaq arasındakı problemlərin hamısı məhz elə buradan qaynaqlanır: onun həssaslıqla, bəzəyərək qurduğu xəyalları heçə saymaqla. Bundan sonra ona dəstək olub xəyallarına gedən yolda əlindən tutub yanaşı gedərək məqsədinə çatdırmağa çalışmaq da mümkündür. Lap elə bu məqaləni oxuduqdan sonra müəyyən məqamda buna nail olmaq mümkündür. Sizcə də bir yerdən başlamaq lazım deyilmi?

✍ Fatma BABAYEVA

***Qədim Ordubad diyarı tarixdə iz qoyan görkəmli şəxsiyyətləri, ədibləri, söz sənətkarları ilə hər zaman şöhrət qazanıb. Hələ XIX əsrdə burada "Əncüməni-şüəra" kimi ədəbi məclisin fəaliyyət göstərməsi sözə verilən qiymətlə bərabər, həm də ədəbiyyatımızın inkişafına böyük təsir göstərib. Bu məclisin üzvləri öz müasirləri ilə ədəbi əlaqələr yaradar, söz sənətkarları bir yerə toplaşar, yazdıqları şeirləri oxuyar, ədəbi yaradıcılıq müzakirələri aparardılar.***

## Ordubad ədəbi mühitinin tanınmış nümayəndəsi

Həmin dövrdə Ordubad ədəbi mühitində öz təfəkkürü və ədəbi düşüncə tərzi ilə seçilən sənətkarlardan biri də Qüdsi Vənəndi olmuşdur. O, "Əncüməni-şüəra" ədəbi məclisinə rəhbərlik etmişdir. Qüdsi Vənəndinin bu məclisə rəhbərlik etdiyi dövrdə məclis məhsuldar bir mərhələ keçmişdir. O, başçılıq etdiyi ədəbi məclisdə özünə və başqalarının əsərlərinə də böyük tələbkarlıqla yanaşmış, bəzən xoşu gəlməyən ədəbi nümunələri açıqcasına tənqid etmişdir.

Qüdsi irsinin tədqiqatçısı, filologiya elmləri doktoru Əsgər Qədimovun monoqrafiyasından əldə etdiyimiz məlumata görə, Qüdsi Vənəndi məhəllə məscidində oxuduqdan sonra Təbrizdə ali ruhani təhsili alıb, dini elmləri, Şərq ədəbiyyatı və fəlsəfəni dərindən mənimsəyib. Şair ömrünün sonuna qədər əsərlərində ictimai ədalət, humanizm və xəlqilik mövqeyindən çıxış edib.

"Əncüməni-şüəra" ədəbi məclisində dövrünün ictimai ziddiyyətlərini qələmə alan şairin əsərləri Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda mühafizə olunmaqdadır. Bu əlyazma divanlarında toplanmış ədəbi irsi qəsidə, mədhiyyə, mənzum məktub, səfərnamə, qəzəl, mürəbbe, müstəzad, müxəmməs, təxnis, gəraylı, qoşma və dini məzmunlu əsərlərdən ibarətdir. Həmin mənbədə rast gəlinən digər məlumatda isə sənətkarın şairliklə yanaşı, səyyahlıq etdiyi də qeyd olunub.

Öz müasirləri ilə müqayisədə Qüdsinin yaradıcılığı zəngin və rəngarəngdir. Şairin müxtəlif illərdə qələmə aldığı "Əvəz" rədifli qəzəl-məktubu, "Tərifi-Gülsüm xanım Şahbuzi", "Düstlər", "Etmək gərək" kimi şeirlərində onun şəxsi həyatı və tərcümeyi-halı, eyni zamanda dövrün reallığı ilə bağlı hadisələr öz əksini tapmışdır.

Qüdsinin həyatı və tərcümeyi-halı ilə bağlı olan digər əsərləri onun İrəvan, Qarabağ, Gəncə, Şəki, Şirvan, Zəngilan, Təbriz və Tehran kimi yerlərdə olmasını və yoxsul güzəran keçirməsini təsdiq edir. Lakin bu yoxsulluq onun ədəbi yaradıcılığına mane ola bilməyib, şair ömrünün sonuna qədər əsərlərində ictimai ədalət, humanizm və xəlqilik mövqeyindən çıxış edib.

Qüdsinin Əlyazmalar İnstitutunda qorunan əlyazma divanının başlanğıcında tamam başqa bir xətlə yazılmış həyatı haqqında da bir neçə məlumata rast gəlmək olar. Burada şairin 1773-cü ildə Vənənd kəndində anadan olması, 1861-ci ildə isə həmin kənddə dünyasını dəyişdiyi qeyd edilib.

Şair "Gözlərin" rədifli bir aşiqanə qoşmasında özünün təxəllüsü və doğulduğu yer haqqında belə məlumat verib:

*Qüdsi təxəllüsüm, məskənim Vənənd,*
*Yanmışam hicrində pərvanəmanənd.*
*Bir zaman ləbindən qıl bari xürsənd,*
*Saldı məni nə böhtanə gözlərin.*

Ümumilikdə, XIX əsr Ordubad ədəbi mühitinin nümayəndələri içərisində Qüdsi Vənəndinin ədəbi irsi öz realizmi, nəzəri-estetik fikri ilə seçilir.

✍ Gülcamal TAHİROVA

## Şəhər birinciliyinin qalibləri müəyyənləşib

***Naxçıvan şəhər İslam Hümbətov adına Uşaq-gənclər idman məktəbində "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında kiçikyaşlı yeniyetmələr (2006-2008-ci illər) arasında cüdo üzrə şəhər açıq birinciliyi keçirilib.***



Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi və Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının təşkilatçılığı ilə keçirilən açıq birincilikdə 10 çəki dərəcəsi üzrə 60-a yaxın idmançı mübarizə aparıb.

Açıq birinciliyin yekununa əsasən qızlar arasında 23 kiloqram çəki dərəcəsində Cənnət Əliyeva, oğlanlar arasında isə Rəhim Qaybalıyev, Nihad Məmmədov, Səid Seyidov, Sami Səfərov, Məhəmməd İsayev, Faiq Məmmədli, Əziz Hacıyev, Rauf Cabbarlı və Məhəmməd Əlizadə müvafiq çəki dərəcələrində birinci yerlərə layiq görülüblər.

Sonda hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə təltif ediliblər.

## Ahıllar arasında stolüstü oyunlar üzrə yarış keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı il 30 may tarixli Sərəncamı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasında ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"na uyğun olaraq onların asudə vaxtlarının səmərəli keçirilməsi məqsədilə müəyyən tədbirlər təşkil olunur.

Ötən gün Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Həmkarlar İttifaqları Şurası və Ağsaqqallar Şurasının təşkilatçılığı ilə Naxçıvan şəhər 2 nömrəli Təqaüdçülər Klubunda ahıllar arasında nərd, dama və şahmat üzrə yarış keçirilib.

Yarışdan öncə çıxış edənlər muxtar respublikada ahıllara göstərilən dövlət qayğısından, onların sosial-mədəni tələbatlarının ödənilməsi sahəsində görülən işlərdən danışıblar.

Sonra yarışa start verilib. Ümumilikdə, 42 iştirakçının mübarizə apardığı yarış (22 nəfər nərd, 12 nəfər şahmat, 8 nəfər dama) Olimpiya sistemi üzrə keçirilib. Yekun nəticəyə əsasən nərd yarışında qalib adını Vasif Əhmədov qazanıb. Ramiz Quliyev ikinci, Hikmət Rzayev üçüncü olublar. Şahmat yarışında ilk üç pillədə Nağı Əliyev, Rəşid Sultanov və Əlibəy Kəngərli qərarlaşıblar. Dama yarışında isə Kəmaləddin İsayev bütün rəqiblərini üstələyib. Nurəddin Səfərəliyev ikinci, İlham Sadiqov isə üçüncü olublar.

Yekunda qaliblər mükafatlandırılıblar.

✍ Ceyhun MƏMMƏDOV


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1490. Sifariş № 91